Azərbaycan Dövlət Pedaqoji
Universitetinin Elmi Şurasının
30 oktyabr 2019-cu il tarixli iclasının
Qərarı ilə (protokol № 2) təsdiq edilmişdir.

# Azərbaycan Dövlət Pedaqoji Universitetinin bakalavriat səviyyəsində tələbələrin dövlət attestasiyası haqqında QAYDALAR

## I. Ümumi müddəalar

1.1. Bu qaydalar "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikası təhsil nazirinin 27 yanvar 1997-ci il tarixli, 54 nömrəli əmri ilə təsdiq olunmuş "Azərbaycan Respublikası ali təhsil müəssisələri tələbələrinin bakalavr pilləsində dövlət attestasiyası haqqında əsasnamə"yə, 13 mart 1997-ci il tarixli, 152 nömrəli əmri ilə təsdiq olunmuş «Ali məktəbin bakalavr pilləsində buraxılış işlərinin hazırlanması qaydaları"na və digər normativ-hüquqi aktlara uyğun hazırlanmışdır.

1.2. Bu qaydalar Azərbaycan Dövlət Pedaqoji Universitetində (bundan sonra "ADPU") və onun filiallarında bakalavriat səviyyəsində təhsil alan tələbələrin, eləcə də əlavə bakalavr təhsili alan dinləyicilərin dövlət attestasiyası ilə bağlı məsələləri tənzimləyir.

1.3. ADPU-da ayrı-ayrı əsas ixtisas fənlərinin (o cümlədən, xarici dilin) tədrisi və ali peşə təhsili proqramları başa çatarkən tələbələrin müvafiq olaraq həmin fənlər üzrə yekun və buraxılış yekun dövlət attestasiyasından (dövlət attestasiyasından) keçirilməsi məcburidir.

1.4. Dövlət attestasiyası ADPU-da müvafiq baza təhsil proqramları üzrə təşkil olunmuş dövlət attestasiya komissiyaları tərəfindən həyata keçirilir.

1.5. ADPU-nun dövlət attestasiya komissiyalarının əsas vəzifəsi məzunların hazırlıq dərəcəsinin təhsil standartının tələblərinə uyğunluğunun kompleks şəkildə qiymətləndirilməsi, dövlət attestasiyası nəticələrinə görə məzuna müvafiq ixtisas dərəcəsi və ali təhsil diplomunun verilməsi haqqında qərar çıxarılması və komissiyanın işinin nəticələri əsasında mütəxəssis hazırlığının təkmilləşdirilməsi üzrə tövsiyələrin hazırlanmasından ibarətdir.

1.6. ADPU-da dövlət attestasiya komissiyaları öz fəaliyyətlərində "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununu, digər qanunvericilik aktlarını və bu Qaydaları rəhbər tuturlar.

## II. ADPU-da dövlət attestasiyasının formaları və məzmunu

2.1. ADPU-da dövlət attestasiyası aşağıdakı formalar üzrə keçirilə bilər:
- istiqamət (ixtisas) üzrə fənlərarası buraxılış (yazılı qaydada) yekun dövlət imtahanı;
- buraxılış işinin müdafiəsi.

2.2. Yekun dövlət imtahanı tələbənin müəyyən fənlər üzrə tədris planlarında nəzərdə tutulan və dövlət təhsil standartları ilə müəyyən edilən materialları mənimsəmə səviyyəsini müəyyən edir.

2.3. İstiqamət (ixtisas) üzrə fənlərarası buraxılış yekun dövlət imtahanında ayrı-ayrı fənlərin məzmununa qoyulan minimum tələblərlə yanaşı, məzuna həmin istiqamət (ixtisas) üzrə dövlət təhsil standartının müəyyən etdiyi ümumi tələblər də nəzərə alınmalıdır.

2.4. Buraxılış işi müvafiq kafedralar tərəfindən müəyyənləşdirilmiş və müvafiq fakültə Elmi Şurasında təsdiq edilmiş mövzular əsasında yerinə yetirilir. Tələbəyə mövzu seçmək, eləcə də işlənməsinin məqsədəuyğunluğu və əhəmiyyəti əsaslandırılmış mövzular təklif etmək hüququ

verilir. Buraxılış işinin yerinə yetirilməsi üçün hər bir tələbəyə rəhbər və zəruri hallarda əlavə məsləhətçi təyin edilir.
2.5. Dövlət attestasiyasının tərkibinə bir qayda olaraq tədris planında nəzərdə tutulan fənlər üzrə (əsas ixtisas fənləri, o cümlədən, xarici dildən, həmin fənlərin tədrisi başa çatarkən) yekun dövlət imtahanları və buraxılış işinin müdafiəsi daxil edilir.
2.6. Dövlət attestasiyasının tərkibinə daxil edilən attestasiya sınaqlarının konkret siyahısı, buraxılış işinin yerinə yetirilməsi qaydası və müddəti, onların müdafiə vaxtı barədə təkliflərini fakültə Elmi Şurası ən azı bir il əvvəldən ADPU-nun Elmi Şurasına təqdim edir.
2.7. Müəyyən fənlər üzrə yekun və ya istiqamət (ixtisas) üzrə fənlərarası buraxılış yekun dövlət imtahanlarının proqramları, eləcə də bu imtahanların və buraxılış işlərinin qiymətləndirilmə meyarları dövlət attestasiya komissiyasının sədrlərinin iştirakı ilə müzakirə olunur və fakültənin Elmi Şurası tərəfindən təsdiq edilir.

## III. ADPU-da yekun dövlət attestasiya komissiyasının strukturu

3.1. ADPU-da dövlət attestasiya komissiyasına ümumi sədr rəhbərlik edir. Ümumi sədr bütün attestasiya işini təşkil edir, ixtisaslar üzrə buraxılış yekun dövlət attestasiya komissiyalarının fəaliyyətini nəzarətdə saxlayır, dövlət attestasiya komissiyasının ümumi sədri, eyni zamanda, sınaq komissiyalarından ixtisası üzrə birinə də sədr, eləcə də üzv seçilə bilər. Ümumi qaydalara görə sədr elmlər doktoru olmalıdır.
3.2. ADPU-da dövlət attestasiya komissiyalarının ümumi sədrini və buraxılış yekun dövlət attestasiya komissiyalarının sədrlərini ADPU rektorunun təqdimatına əsasən Azərbaycan Respublikası Təhsil Nazirliyi təyin edir.
3.3. Dövlət attestasiya komissiyasının üzvləri Tədris Departamenti ilə razılaşdırmaqla ADPU-nun elmi-pedaqoji heyətindən, müvafiq sahə üzrə nüfuzlu mütəxəssislərdən, eləcə də digər ali təhsil müəssisələrinin aparıcı professor-müəllim heyətindən təşkil edilir.
3.4. Dövlət attestasiya komissiyalarının tərkibini ADPU-nun rektoru təsdiq edir.
3.5. ADPU-da dövlət attestasiya komissiyaları təqvim ili ərzində fəaliyyət göstərir. Bir qayda olaraq, dövlət attestasiyası tədris ilinin sonunda, zərurət yarandıqda isə oktyabr və dekabr aylarında da təşkil oluna bilər.

## IV. ADPU-da yekun dövlət attestasiyasının keçirilməsi qaydası

4.1. Yekun dövlət attestasiyasının keçirilməsi formasını və şərtlərini ADPU-nun Elmi Şurası müəyyənləşdirir və dövlət attestasiyasının başlanmasına ən azı 4 ay qalmış tələbələrin nəzərinə çatdırır.
4.2. Tələbələr imtahan proqramları ilə təmin edilir, hazırlaşmaq üçün onlara lazımi şərait yaradılır, məsləhətlər verilir və lazım gəldikdə icmal dərslər təşkil edilir.
4.3. Əsas peşə təhsili proqramlarından biri üzrə tam təlim kursunu başa çatdırmış və tədris planında nəzərdə tutulan bütün əvvəlki attestasiya sınaqlarından, o cümlədən, pedaqoji və istehsalat təcrübələrindən müvəffəqiyyətlə keçmiş təhsilalanlar istiqamət (ixtisas) üzrə fənlərarası buraxılış yekun dövlət imtahanlarına və ya buraxılış işinin müdafiəsinə buraxılırlar.
4.4. Buraxılış yekun imtahanları və buraxılış işlərinin müdafiəsi imtahan komissiyasının açıq iclasında komissiya tərkibinin ən azı 2/3-si iştirak etdikdə keçirilir.
4.5. Dövlət attestasiyasının nəticələri Azərbaycan Respublikasının təhsil nazirinin 11 sentyabr 2008-ci il tarixli, 1060 nömrəli əmri ilə təsdiq olunmuş “Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında əsasnamə”yə istinadən qiymətləndirilir. Yekun dövlət attestasiya imtahanı hər biletdə ixtisas fənlərini əhatə edən 5 sual olmaqla yazılı qaydada 4 akademik saat ərzində keçirilir. Hər sualın cavabı müvafiq əsasnaməyə uyğun 0-10 balla

qiymətləndirilərək Yekun Dövlət Attestasiya Komissiyası tərəfindən ikiyə vurulmaqla müəyyən olunur və yekun nəticə çıxarılır. Buraxılış işinin yazılması və müdafiəsinə görə tələbənin toplaya biləcəyi balların maksimum miqdarı 100-ə bərabərdir. Bu balların yarısı buraxılış işinin hazırlanması və tərtibinə, digər yarısı isə Dövlət Attestasiya Komissiyası qarşısında müdafiəsinə görə verilir. Buraxılış işlərinin müdafiəsi üzrə yekun nəticə dövlət attestasiya komissiyasının üzvlərinin hər birinin 0-50 ballıq qiymətləndirməsinin cəmlənərək, ümumi komissiya üzvlərinin sayına bölünməsi yolu ilə müəyyən olunur (Əlavə 1).

4.5.1. "Təsviri incəsənət müəllimliyi" ixtisasının xüsusiyyətləri nəzərə alınaraq, bu ixtisasda təhsil alan tələbələrin buraxılış yekun dövlət attestasiyası ümumi orta müvəffəqiyyət göstəricisi 81 və yuxarı olan tələbələr üçün arzularına uyğun şəkildə buraxılış işinin müdafiəsi yolu ilə həyata keçirilə bilər. Digər hallarda isə yazılı yekun dövlət attestasiyası iki hissədən ibarət olmaqla keçirilir. Yazılı imtahan zamanı 100 ballıq qiymətləndirmə sistemi ilə 50 bal tələbənin çəkdiyi rəsm əsərinə və onun müdafiəsinə, 50 bal isə yazılı imtahanda (5 sual, hər biri 0-10 balla qiymətləndirilməklə) verilən cavaba görə hesablanır. Hər iki 50 ballıq qaydada 17 bal keçid balı kimi götürülür.

4.6. Təhsil proqramının mənimsənilməsində xüsusi nailiyyətlər əldə etmiş, təhsil müddətində "yaxşı" qiymətlərinin sayı bütün qiymətlərinin sayının 25%-dən çox olmamaqla, bütün imtahanlardan yalnız "yaxşı" və "əla", buraxılış yekun dövlət attestasiyası sınaqlarından isə yalnız "əla" qiymətlər almış məzunlara fərqlənmə diplomu verilir.

4.7. Dövlət attestasiya komissiyasının strukturuna daxil olan komissiyaların qərarları qapalı iclasda komissiya üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Səslər bərabər olduqda sədrin səsi həlledici sayılır.

4.8. Buraxılış yekun dövlət imtahanlarına ən azı 4 ay qalmış, ixtisasın tədris planında müəyyən edilmiş fənlər üzrə (Əlavə 2) imtahana düşəcək sualların siyahısı ixtisas kafedralarının təklifi ilə fakültə Elmi Şurası tərəfindən təsdiq olunur və tələbələrə (dinləyicilərə) elan (fakültənin elanlar löhvəsində və universitetin internet səhifəsində) olunur.

4.9. Ümumi nəticədə 100 ballıq qiymətləndirmə sistemi ilə ən azı 51 bal toplayan tələbə (dinləyici) dövlət attestasiyasından keçmiş sayılır və ona komissiyanın qərarı ilə bakalavr dərəcəsi verilir. 51 baldan az toplayan tələbələr üçün komissiyanın qərarı əsasında növbəti 4 il ərzində daha iki dəfə imtahan vermək imkanı yaradılır. Bu imkandan istifadə edə bilməyən tələbə diplom almaq hüququndan məhrum olur və həmin tələbəyə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 21 yanvar tarixli 12 nömrəli qərarı ilə təsdiq edilmiş "Müxtəlif səbəblərdən təhsilin hər hansı pilləsini və səviyyəsini başa vurmayan şəxslərə arayışın verilməsi Qaydası"na əsasən müvafiq arayış verilir.

4.10. Yekun dövlət attestasiya imtahanına üzürlü səbəbdən gəlməmiş tələbələrə, üzürlülük sənədləri təqdim etdiyi təqdirdə Yekun Dövlət Attestasiya Komissiyasının qərarı ilə imtahanda iştirak haqqı qorunur və qaydalara əsasən növbəti dövlət imtahanlarında iştirak etmək imkanı yaradılır.

4.11. Dövlət attestasiya komissiyasının işi haqqında hər il ADPU-nun Elmi Şurasında hesabat verilir. Bu hesabat buraxılış yekun attestasiyası başa çatdıqdan sonra üç ay müddətindən gec olmayaraq Azərbaycan Respublikasının Təhsil Nazirliyinə təqdim edilir.

4.12. Dövlət attestasiya komissiyasının qərarından narazı qalan tələbə nəticə elan olunan gündən sonrakı iş günü ərzində, öz işi ilə tanış olmaq, qiymətləndirmənin nəticələri haqqında məlumat almaq üçün ərizə ilə müraciət edə bilər. Bu müraciətə mövcud qanunvericiliyin tələbərinə uyğun şəkildə cavab verilir.

4.13. ADPU-da dövlət attestasiya komissiyasının qərarları kollegial qəbul olunduğuna görə, ondan apellyasiya şikayəti verilə bilməz.

## V. ADPU-da bakalavr pilləsində buraxılış işlərinin hazırlanması və qiymətləndirilməsi qaydaları

5.1. ADPU-da bakalavriat səviyyəsində buraxılış işlərinin hazırlanması Azərbaycan Respublikası təhsil nazirinin 13 mart 1997-ci il tarixli, 152 nömrəli əmri ilə təsdiq edilmiş "Ali məktəbin bakalavr pilləsində buraxılış işlərinin hazırlanması qaydaları"na və bu Qaydalara görə tənzimlənir.
5.2. ADPU-da əsas peşə təhsili proqramlarından biri üzrə tam təlim kursunu başa çatdırmış və tədris planında nəzərdə tutulan bütün əvvəlki attestasiya sınaqlarından normativ təhsil müddətində müvəffəqiyyətlə keçmiş, ümumi orta müvəffəqiyyət göstəricisi (bundan sonra - ÜOMG) 81 bal və ondan yüksək olan tələbələr - yazılı müraciətləri əsasında dövlət attestasiyasının buraxılış işinin müdafiəsi formasını seçə bilər.
5.3. ADPU-da buraxılış işləri bakalavriat səviyyəsində tələbələrin təhsilinin son mərhələsi kimi elmi və ya praktiki əhəmiyyətə malik olmaqla aşağıdakı məqsədləri daşıyır:

- istiqamət (ixtisas) üzrə alınan nəzəri və təcrübi biliklərin sistemləşdirilməsi, möhkəmləndirilməsi, genişləndirilməsi, analitik və yaradıcı düşüncənin inkişaf etdirilməsi, konkret standart məsələlərin həlli vərdişlərinin aşılanması, eləcə də onların texniki-iqtisadi, istehsalat və mədəni quruculuq məsələlərinə tətbiqi;
- müstəqil akademik ədəbiyyatla işləmək vərdişlərinin inkişaf etdirilməsi, eləcə də buraxılış işlərində qoyulan problem və sualların həllinin araşdırılması metodlarına yiyələnmək;
- tələbələrin müasir təhsilin, iqtisadiyyatın, elmin, texnikanın və mədəniyyətin müvafiq sahələrində müstəqil işləməyə hazırlıq səviyyəsini müəyyənləşdirmək.

5.4. ADPU-da buraxılış işlərinin müdafiəsi tələbələrin yekun dövlət attestasiyasının bir forması olmaqla, həm də onların sonuncu attestasiyasıdır. Bu attestasiyanın nəticəsinə görə məzuna bakalavr dərəcəsi verilir.
5.5. Buraxılış işləri aşağıdakı meyarlar əsasında qiymətləndirilir:

- Buraxılış işinin tərtibatına görə - 0-25 bal;
- Buraxılış işinin məzmununun işin mövzusuna uyğunluğuna, qrammatik və stilistik səhvlərə yol vermədiyinə görə - 0-25 bal;
- Buraxılış işinin müdafiəsi səviyyəsinə (məruzə, təqdimat və s.) görə -0-20 bal;
- Buraxılış işi barədə elmi rəhbərin və rəsmi rəyçinin rəyinə görə - 0-10 bal;
- Tələbənin müdafiə ilə bağlı verilən suallara cavabına görə - 0-20 bal;

5.5.1. Buraxılış işlərinin müdafiəsi üzrə ballar yekun nəticə dövlət attestasiya komissiyasının üzvlərinin hər birinin 0-50 ballıq qiymətləndirməsinin cəmlənərək, ümumi komissiya üzvlərinin sayına bölünməsi yolu ilə müəyyən olunur

## VI. ADPU-da buraxılış işlərinin mövzuları

6.1. ADPU-da buraxılış işlərinin mövzuları müasir elmin aktual problemlərini əhatə etməklə yanaşı, eyni zamanda tələbələrin bakalavriat səviyyəsində qazandıqları nəzəri və təcrübi biliklərin həcm və məzmununa uyğun olmalıdır.
6.2. Buraxılış işlərinin mövzuları müvafiq kafedra tərəfindən bakalavriat səviyyəsinin təhsil proqramında qeyd olunan ixtisasın xarakteristika və kompetensiyaları üzrə müəyyənləşdirilir, fakültə Elmi Şurasında təsdiq olunur və buraxılış işlərinin müdafiəsinə ən azı 4 ay qalmış tələbələrə elan olunur.
6.3. Mövzu təsdiq edildikdən sonra 3 iş günü ərzində tələbəyə buraxılış işinin rəhbəri tərəfindən buraxılış işi üzrə tapşırığın ADPU tərəfindən müəyyən olunmuş forması və həcmi (Əlavə 3.) verilir.

6.4. Tələbə yekun dövlət attestasiyanın buraxılış işinin müdafiəsi formasını seçdikdən sonra ondan imtina etməsi yolverilməzdir.

## VII. ADPU-da buraxılış işlərinin quruluşu, hazırlanması və məzmunu

7.1. ADPU-da buraxılış işi aşağıdakı quruluşda tərtib olunur:
- titul vərəqi (təsisçi, ali təhsil müəssisəsi, fakültə, istiqamət və ya ixtisas, mövzunun adı, işin rəhbərinin və tələbənin soyadı, adı və ata adı göstərilməklə);
- buraxılış işinin tapşırıq vərəqi;
- referat (buraxılış işinin nəticəsinin əks olunduğu maksimum 4-5 səhifədən ibarət xülasə);
- mündəricat;
- giriş;
- tapşırığın müəyyən olunmuş əsas hissəsi;
- yekun nəticə və ya təkliflər;
- istifadə olunmuş ədəbiyyat siyahısı;
- əlavələr (əgər nəzərdə tutulubsa).

7.2. Buraxılış işinə ümumi tələblər və tərtib olunma qaydaları ADPU-da kadr hazırlığının profilinə uyğun olmalıdır. İstiqamətdən (ixtisasdan) asılı olaraq buraxılış işinin həcmi 1,5-2,5 çap vərəqi (minimum 25, maksimum 40 A4 vərəqi) həcmində olur.

7.3. Buraxılış işi kompüterdə yığılmış və cildlənmiş şəkildə təqdim olunur.

7.4. Buraxılış işinə buraxılış işinin rəhbəri ilə yanaşı, həmin istiqamət üzrə bir nəfər mütəxəssis də rəy verir.

7.5. Buraxılış işinin məzmunu ixtisasın dövlət standartı ilə müəyyən olunmuş tələblərə cavab verməlidir.

7.6. Buraxılış işinin tərtibi zamanı bütün texniki tələblər Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin 19 sentyabr 2003-cü il tarixli (protokol №12) və 06 iyun 2004-cü il tarixli (protokol №11) qərarları ilə edilmiş dəyişikliklərlə) dissertasiyaların tərtibi qaydalarına əsaslanır.

## VIII. ADPU-da buraxılış işlərində antiplagiat siyasəti

8.1. Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə uyğun olaraq ADPU-da buraxılış işlərində antiplagiat proqramının tətbiqi həyata keçirilir.
8.2. ADPU-da buraxılış işlərində antiplagiat proqramı 2019/2020-ci tədris ilindən etibarən Polşa Respublikasının *Plagiat.pl* şirkəti ilə bağlanan müqaviləyə əsasən həyata keçirilir.
8.3. ADPU-da buraxılış işlərində plagiatın (mətnlərdə oxşarlığın) yoxlanılması müvafiq şöbə tərəfindən xüsusi proqram təminatı vasitəsi ilə həyata keçirilir.
8.4. Buraxılış işi müdafiəyə bir ay qalmış aparıcı kafedraya təqdim olunur, kafedra toplanmış işləri rəsmi şəkildə təqdimat əsasında dekanlığa təqdim edir.
8.5. Fakültə dekanının təqdimatı əsasında təqdim olunan buraxılış işinin elektron versiyası oxşarlığın müəyyən olunması üçün ADPU rektorunun təyin etdiyi antiplagiat üzrə məsul şəxsə təqdim edilir. Məsul şəxs təqdim olunmuş buraxılış işini (titul vərəqi, istinad verilmiş hissələr və ədəbiyyat siyahısı istisna olmaqla) yoxlayıb nəticə əldə edir.
8.7. Yoxlanılmış işlərdə oxşarlıq ADPU-nun müəyyən etdiyi limitdən yüksək olarsa, tələbəyə icazə verilir ki, hazırladığı buraxılış işi üzərində təkrar bir dəfə düzəliş etsin.
8.8. Tələbə müdafiəyə 7 iş günündən az qalmamaq şərti ilə işin təkrar yoxlanmasını təmin etməlidir.

8.9. İkinci yoxlamada da oxşarlıq ADPU-nun müəyyən etdiyi limitdən çox olan tələbənin buraxılış işinin müdafiəsi növbəti semestrə saxlanılır.
8.6. Təqdim olunan buraxılış işləri operativ şəkildə elektron sistemdə yoxlandıqdan sonra, alınan nəticələr barədə müvafiq kafedraya və tələbəyə yazılı məlumat verilir. Təkrar yoxlamaya yönəldiləcək işlərlə əlaqəli proqramın prosedurları barədə tələbə məlumatlandırılır.
8.10. Antiplagiat üzrə məsul şəxs tədris ilinin sonunda buraxılış işlərinin antiplagiat nəticələri ilə bağlı yekun hesabatı (Əlavə 4.) hazırlayıb rektora təqdim edir.
8.11. Təqdim olunan buraxılış işində oxşarlıq hesabatı ADPU-nun təyin etdiyi limitdən yüksək olarsa:
8.11.1. Tələbələr - təkrar yoxlamanı öz maliyyə vəsaitləri hesabına həyata keçirir.
8.11.2. Elmi rəhbərlər:
8.11.2.1. Elmi rəhbərin rəhbərlik etdiyi tələbənin işində, iki il ardıcıl olaraq plagiat aşkarlanarsa və buna görə tələbə buraxılış işinin müdafiəsinə buraxılmazsa, bu halda növbəti tədris ilində həmin müəllim üçün elmi rəhbərlik auditoriya dərsləri ilə əvəz edilir və həmin elmi rəhbərlə bağlı fakültə Elmi Şurasında qərar çıxarılır.

## IX. Buraxılış işlərinin müdafiəsinin təşkili və müdafiə olunmuş işlərin saxlanılması

9.1. Buraxılış işlərinin müdafiəsi "Azərbaycan Respublikası ali təhsil müəssisələri tələbələrinin bakalavr pilləsində dövlət attestasiyası haqqında Əsasnamə"yə uyğun yaradılmış komissiya tərəfindən təşkil edilir.
9.2. Buraxılış işlərinin hazırlanması, rəhbərlik və müdafiəsini keçirmək üçün vaxt bölgüsü Azərbaycan Respublikasının təhsil nazirinin 24 fevral 1994-ci il tarixli, 113 nömrəli əmri ilə təsdiq edilmiş "Professor-müəllim heyətinin tədris işi üçün vaxt normasının müəyyənləşdirilməsi, elmi-tədqiqat, elmi-metodiki və digər işlərin növləri barədə" sənəddə buraxılış işləri üçün nəzərdə tutulan normalara uyğun müəyyənləşdirilir.
9.3. Buraxılış işləri müvafiq qanunvericiliklə müəyyən olunmuş qaydada ADPU-nun Kitabxana-İnformasiya Mərkəzində (filiallarda uyğun qurumlarda) saxlanılır. Buraxılış işlərinin surətinin çıxarılmasına icazə verilmir. İncəsənət, musiqi və digər bu kimi sahələrdə hazırlanmış buraxılış işləri ADPU-nun müəyyən etdiyi qaydada istifadə üçün verilə bilər.

## X. Yekun və keçid müddəaları

10.1. ADPU-da tələbələrin bakalavriat səviyyəsində yekun dövlət attestasiya imtahanlarının təşkili və keçirilməsi ilə bağlı digər prosedur məsələləri (9-cu bənd istisna olmaqla) ADPU Rektorunun 25.12.2018-ci il tarixli əmri ilə təsdiq edilmiş "Azərbaycan Dövlət Pedaqoji Universitetində imtahan sessiyasının təşkili və keçirilməsi Qaydaları"na əsasən tənzimlənir.
10.2. ADPU üzrə buraxılış işləri mövzularının və müdafiə edilmiş işlərin vahid uçotu Tədris Departamenti tərəfindən aparılır.
10.3. ADPU-da antiplagiat üzrə oxşarlıq faizi 2019/2020-ci tədris ili üçün 25%, 2020/2021-ci tədris ili üçün 20 % və sonrakı illər üçün 15 % olaraq müəyyən edilir.
10.4. Bu qaydalar 2016/2017-ci və sonrakı tədris illəri üzrə qəbul olmuş tələbərə şamil olunur.
10.5. Bu qaydalara dəyişiklik və əlavələr ADPU Elmi Şurasının qərarı və Rektorun əmri ilə edilir.

Əlavə 1.

Azərbaycan Dövlət Pedaqoji
Universitetinin Elmi Şurasının
30 oktyabr 2019-cu il tarixli iclasının
Qərarı ilə (protokol № 2) təsdiq edilmişdir.

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin**
**Yekun Dövlət Attestasiyası Komissiyasının**
**Tələbə____________________________________________________buraxılış işinin qiymətləndirilməsi cədvəli**

| № | Yekun Dövlət Attestasiyası Komissiyasının üzvləri soyadı, adı, atasının adı | Buraxılış işinin qiymətləndirmə meyarları (0-100 bal) | | | | | Yekun orta qiymət |
|---|---|---|---|---|---|---|---|
| | | Buraxılış işinin hazırlanmasına (0-50 bal) | | DAK qarşısında müdafiəsinə (0-50bal) | | | |
| | | Buraxılış işinin tərtibatına görə (0-25 bal) | Buraxılış işinin məzmunu işin mövzusuna uyğunluğuna, qramatik və stilistik səhvlərə yol vermədiyinə görə (0-25 bal) | Buraxılış işinin müdafiəsi səviyyəsinə (məruzə, təqdimat və s.) görə (0-20 bal) | Buraxılış işi barədə elmi rəhbərin və rəsmi rəyçinin rəyinə görə (0-10 bal) | Tələbənin müdafiə ilə bağlı verilən suallara cavabına görə (0-20 bal) | |
| 1. | | | | | | | |
| 2. | | | | | | | |
| 3. | | | | | | | |
| 4. | | | | | | | |
| 5. | | | | | | | |

**Komissiya üzvlərinin imzası:**

**Tarix:**

Əlavə 2.

Azərbaycan Dövlət Pedaqoji<br>Universitetinin Elmi Şurasının<br>30 oktyabr 2019-cu il tarixli iclasının<br>Qərarı ilə (protokol № 2) təsdiq edilmişdir.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti**

Yekun dövlət attestasiya imtahanında ixtisaslar üzrə fənlərin və sualların sayı

<table>
<tr><th rowspan="2">№</th><th rowspan="2">İxtisasın adı</th><th rowspan="2">Yekun dövlət attestasiya imtahanında suallar düşəcək fənlərin adı</th><th colspan="2">Sualların sayı</th></tr>
<tr><th>Fənn üzrə</th><th>İxtisas üzrə</th></tr>
<tr><td rowspan="5">1.</td><td rowspan="5">Azərbaycan dili və ədəbiyyatı müəllimliyi</td><td>1. Müasir azərbaycan dili</td><td>30</td><td rowspan="5">150</td></tr>
<tr><td>2. Azərbaycan ədəbiyyatı tarixi</td><td>30</td></tr>
<tr><td>3. Azərbaycan dilinin tədrisi metodikası</td><td>30</td></tr>
<tr><td>4. Ədəbiyyatın tədrisi metodikası</td><td>30</td></tr>
<tr><td>5. Pedaqogika</td><td>30</td></tr>
<tr><td rowspan="5">2.</td><td rowspan="5">Biologiya müəllimliyi</td><td>1. Botanika</td><td>30</td><td rowspan="5">150</td></tr>
<tr><td>2. Zoologiya</td><td>30</td></tr>
<tr><td>3. İnsan və heyvan fiziologiyası</td><td>30</td></tr>
<tr><td>4. Biologiyanın tədrisi metodikası</td><td>30</td></tr>
<tr><td>5. Pedaqogika</td><td>30</td></tr>
<tr><td rowspan="5">3.</td><td rowspan="5">Coğrafiya müəllimliyi</td><td>1. Ümumi yerşünaslıq</td><td>30</td><td rowspan="5">150</td></tr>
<tr><td>2. Materiklərin fiziki coğrafiyası</td><td>30</td></tr>
<tr><td>3. Dünyanın iqtisadi və sosial coğrafiyası</td><td>30</td></tr>
<tr><td>4. Coğrafiyanın tədrisi metodikası</td><td>30</td></tr>
<tr><td>5. Pedaqogika</td><td>30</td></tr>
<tr><td rowspan="5">4.</td><td rowspan="5">Fizika müəllimliyi</td><td>1. Mexanika və molekulyar fizika</td><td>30</td><td rowspan="5">150</td></tr>
<tr><td>2. Elektormaqnetizm</td><td>30</td></tr>
<tr><td>3. Optika</td><td>30</td></tr>
<tr><td>4. Atom və nüvə fizikası</td><td>30</td></tr>
<tr><td>5. Fizikanın tədrisi metodikası</td><td>30</td></tr>
<tr><td rowspan="5">5.</td><td rowspan="5">Fiziki tərbiyə və çağrışaqədərki hazırlıq müəllimliyi</td><td>1. Fiziki tərbiyənin nəzəriyyəsi</td><td>30</td><td rowspan="5">150</td></tr>
<tr><td>2. Fiziki tərbiyənin metodikası</td><td>30</td></tr>
<tr><td>3. Gənclərin çağrışaqədərki hazırlığı</td><td>30</td></tr>
<tr><td>4. İdman fənləri</td><td>30</td></tr>
<tr><td>5. Pedaqogika</td><td>30</td></tr>
<tr><td rowspan="5">6.</td><td rowspan="5">İbtidai sinif müəllimliyi</td><td>1. Ana dili</td><td>30</td><td rowspan="5">150</td></tr>
<tr><td>2. Ana dilinin tədrisi metodikası</td><td>30</td></tr>
<tr><td>3. Riyaziyyatın ibtidai kursunun nəzəri əsasları</td><td>30</td></tr>
<tr><td>4. Riyaziyyatın tədrisi metodikası</td><td>30</td></tr>
<tr><td>5. Pedaqogika</td><td>30</td></tr>
<tr><td rowspan="3">7.</td><td rowspan="3">İnformatika müəllimiyi</td><td>1. İnformatika</td><td>30</td><td rowspan="3">150</td></tr>
<tr><td>2. Əməliyyatlar sistemi</td><td>30</td></tr>
<tr><td>3. Komputer şəbəkələri və Təhsildə İKT</td><td>30</td></tr>
</table>

| | | | | |
|---|---|---|---|---|
| | | 4. İnformatikanın tədrisi metodikası | 30 | |
| | | 5. Pedaqogika | 30 | |
| 8. | Kimya müəllimliyi | 1. Qeyri-üzvi kimya | 30 | 150 |
| | | 2. Üzvi kimya | 30 | |
| | | 3. Analitik kimya | 30 | |
| | | 4. Kimyanın tədrisi metodikası | 30 | |
| | | 5. Pedaqogika | 30 | |
| 9. | Kimya və biologiya müəllimliyi | 1. Qeyri-üzvi kimya | 30 | 150 |
| | | 2. Üzvi kimya | 30 | |
| | | 3. Botanika | 30 | |
| | | 4. Zoologiya | 30 | |
| | | 5. Pedaqogika | 30 | |
| 10. | Korreksiyaedici təlim | 1. Defektologiyanın əsasları | 30 | 150 |
| | | 2. Loqopediya | 30 | |
| | | 3. Ümumi psixologiya | 30 | |
| | | 4. Ana dilinin tədrisi metodikası | 30 | |
| | | 5. Pedaqogika | 30 | |
| 11. | Məktəbəqədər təhsil | 1. Məktəbəqədər pedaqogika | 30 | 150 |
| | | 2. Nitq inkişafı metodikası | 30 | |
| | | 3. Uşaq psixologiyası | 30 | |
| | | 4. Pedaqoji psixologiya | 30 | |
| | | 5. Pedaqogika | 30 | |
| 12. | Musiqi müəllimliyi | 1. Musiqi tarixi | 30 | 150 |
| | | 2. Xorşünaslıq | 30 | |
| | | 3. Azərbaycan xalq musiqisinin əsasları | 30 | |
| | | 4. Musiqinin tədrisi metodikası | 30 | |
| | | 5. Pedaqogika | 30 | |
| 13. | Riyaziyyat müəllimliyi | 1. Riyazi analiz | 30 | 150 |
| | | 2. Cəbr | 30 | |
| | | 3. Həndəsə | 30 | |
| | | 4. Riyaziyyatın tədrisi metodikası | 30 | |
| | | 5. Pedaqogika | 30 | |
| 14. | Riyaziyyat və informatika müəllimliyi | 1. Riyazi analiz | 30 | 150 |
| | | 2. Cəbr və həndəsə | 30 | |
| | | 3. İnformatika | 30 | |
| | | 4. Riyaziyyat və informatikanın tədrisi metodikası | 30 | |
| | | 5. Pedaqogika | 30 | |
| 15. | Tarix müəllimliyi | 1. Azərbaycan tarixi | 30 | 150 |
| | | 2. Türk xalqları tarixi | 30 | |
| | | 3. Müasir tarix | 30 | |
| | | 4. Tarixin tədrisi metodikası | 30 | |

| | | | | |
|---|---|---|---|---|
| | | 5. Pedaqogika | 30 | |
| 16. | Tarix və coğrafiya müəllimliyi | 1. Azərbaycan tarixi | 30 | 150 |
| | | 2. Türk xalqları tarixi | 30 | |
| | | 3. Dünyanın iqtisadi və sosial coğrafiyası | 30 | |
| | | 4. Materik və okeanların fiziki coğrafiyası | 30 | |
| | | 5. Pedaqogika | 30 | |
| 17. | Təhsildə sosial-psixoloji xidmət | 1. Ümumi psixologiya | 30 | 150 |
| | | 2. Sosial psixologiya | 30 | |
| | | 3. İnkişaf və yaş psixologiyası | 30 | |
| | | 4. Psixologiyanın tədrisi metodikası | 30 | |
| | | 5. Pedaqogika | 30 | |
| 18. | Təsviri incəsənət müəllimliyi | 1. İncəsənət tarixi | 30 | 150 |
| | | 2. Psixologiya | 30 | |
| | | 3. Perspektiva | 30 | |
| | | 4. Təsviri sənətin tədrisi metodikası | 30 | |
| | | 5. Pedaqogika | 30 | |
| 19. | Texnologiya müəllimliyi | 1. Elektrotexnika | 30 | 150 |
| | | 2. Maşınşünaslığın əsasları | 30 | |
| | | 3. Materialların kəsilməsi, dəzgah və alətlər | 30 | |
| | | 4. Peşə seçimi və istehsalatın əsasları | 30 | |
| | | 5. Texnologiyanın tədrisi metodikası | 30 | |
| 20. | Xarici dili müəllimliyi (ingilis) | 1. Xarici dil (ingilis) | 30 | 150 |
| | | 2. İxtisas dilinin qramatikası | 30 | |
| | | 3. İxtisas dilinin fonetikası | 30 | |
| | | 4. İxtisas dilinin tədrisi metodikası | 30 | |
| | | 5. Pedaqogika | 30 | |
| 21. | Xarici dili müəllimliyi (fransız) | 1. Xarici dil (fransız) | 30 | 150 |
| | | 2. İxtisas dilinin tədrisi metodikası | 30 | |
| | | 3. İxtisas dilinin qramatikası | 30 | |
| | | 4. İxtisas dilinin fonetikası | 30 | |
| | | 5. Pedaqogika | 30 | |
| 22. | Sosial iş | 1. Sosial işə giriş | 30 | 150 |
| | | 2. Sosial iş nəzəriyyəsi və təcrübəsi | 30 | |
| | | 3. Sosial işdə tədqiqat metodikası | 30 | |
| | | 4. Fərdlər, qruplar və ailələrlə sosial iş | 30 | |
| | | 5. Azərbaycanda sosial yardım sistemi | 30 | |

**QEYD:** Fənlərin sayı ixtisasa görə arta və ya azalada bilər. Burada əsasən ixtisasın tədris planında yekun dövlət attestasiyası üçün nəzərdə tutulan və fakültə Elmi Şurasının qərarı ilə təsdiq olunan fənnlər ola bilər.

Əlavə 3.

Azərbaycan Dövlət Pedaqoji
Universitetinin Elmi Şurasının
30 oktyabr 2019-cu il tarixli iclasının
Qərarı ilə (protokol № 2) təsdiq edilmişdir.

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ**

| | |
|---|---|
| **Fakültə:** | |
| **Kafedra:** | |
| **İxtisas:** | |
| **Qrup:** | |
| **Təhsil dili:** | |

## “Orta məktəblərdə ədəbiyyat dərsinin təşkilində müasir məsələlər”

mövzusunda

BURAXILIŞ İŞİ

| | |
|---|---|
| **Tələbə** | |
| **Elmi rəhbər** | |
| **Məsləhətçilər** | |
| **Kafedra müdiri** | |

**Bakı- 2020**

# BURAXILIŞ İŞİNİN TAPŞIRIQ VƏRƏQİ

**1. Buraxılış işinin adı**

**2. Buraxılış işinin tədqiqat problemi**

**3. Buraxılış işinin mövzusu**

**4. Buraxılış işinin məqsədi**

**5. Buraxılış işinin əhəmiyyəti**

**6. Buraxılış işinin nəzəri çərçivəsi**

6.1. Anlayışlar və terminlər

6.2. Tədqiqat problemləri və hipotezlər

**7. Buraxılış işində tətbiq olunan tədqiqat üsulu**

**8. Buraxılış işi üzrə vaxtın idarə olunması**

**9. Buraxılış işinin ilkin mündəricat layihəsi**

**10. Əlavələr**

1. **İŞİN ADI :** buraxlış işinin mövzusunu müəyyən edən bir ad olmalıdır. Çox uzun, başa düşülməsi çətin olan və ümum adlarından istifadə edilməməlidir. Buraxlış işinin adı tədqiat prosesi dərinləşdikcə inkişaf etdirilə, dəyişikliyə uğraya bilər.
2. **TƏDQİQAT PROBLEMİ:** Tədqiqatçıda elmi maraq oyadan, onu bu sahədə buraxlış işi yazmağa yönəldən ictimai ya da nəzəri problem qısaca açıqlanır, problemin nədən ibarət olduğu müzakirə edilir.
3. **İŞİN MÖVZUSU:** Açıqlanan problemin özü, ya da problemlə əlaqədar  mövzu olmalıdır. İşin mövzusu buraxılış işində hansı mövzuların tədqiq ediləcəyini göstərən müvafiq cümlələrdir. İşin mövzusunun maksimum beş cümlə ilə ifadə olunması məqsədəmüvafiqdir. Ancaq problemlə mövzu arasındakı əlaqəni müəyyən etmək və mövzunu daha aydın vəziyyətə gətirmək üçün əlavə izahatlar verilə bilər. İşin mövzusunun sərhədləri, əhatəsi (nəyi tədqiqatdan kənarda tutmaq və nəyi tədqiqata cəlb etmək) və məhdudiyətləri də məhz burada müəyyən olunmalıdır.
4. **İŞİN MƏQSƏDİ** mövzunun nə üçün tədqiq olunduğunu aydınlaşdırar. Başqa sözlə, tədqiqatın sonunda əldə olunan nəticələrlə nə məqsədlərin güdüldüyü müəyyən edilər.Burada "nə öyrəniləcək deyil, nə üçün öyrəniləcək" sualına cavab verilməlidir. İşin birdən çox məqsədi ola bilər. Misal üçün, nəzəri bir problemin müəyyən edilməsinə və ya həllinə istiqamətlənərkən, eyni zamanda bu müəyyən edilmə və həll etmə prosesi ilə praktik bir problemin də həllinə kömək etməsi məqsəd kimi müəyyən oluna bilər. Bu və digər oxşar vəziyyətlərdə, işin istiqamətləndiyi bütün səviyyələrdəki məqsəd(lər)in ayrı-ayrı müəyyən edilməsi lazımdır.
5. **İŞİN ƏHƏMİYYƏTİ**, mövzunun müəyyən edilmiş məqsədlərinin əsaslandırılaraq izah olunmasıdır. Burada, işin mövzusu və məqsədi ilə birbaşa əlaqədar əhəmiyyətli tədqiqatlara istinad edilərək, onların mövzuya hansı aspektləri ilə incələdiklərini müəyyən edir. Həmçinin, işin nəzəri və praktik faydalarına da yer verilməlidir.
6. **NƏZƏRİ ÇƏRÇİVƏ**

   **6.1. Anlayışlar və terminlər:** Bu hissədə işdə istifadə ediləcək anlayışlar və terminologiya nəzəri diskussiya çərçivəsində izah olunur. İstifadə olunan anlayışların və terminlərin ümumi (ensiklopedik, terminoloji izahatı) və həmçinin tədqiqatçının verdiyi xüsusi/konkert mənanın izahatı verilə bilər. Həmçinin işin özünün ortaya çıxardığı yeni terminlər də ola bilər ki, onların da nə mənada istifadə edildiyi və etimologiyasının nədən ibarət olduğu məyyənləşdirilməlidir.

   **6.2. Tədqiat problemləri/hipotezlər:** İşin məqsədinə uyğun və işin nəzəri çərçivəsində mövzunun açılması üçün bilik kateqoriyaları müəyyənləşdirilərək tədqiqat problemləri formalaşdırılır ya da (tədqiqat sahəsinin ehtiyac duyduğu vəziyyətlərdə) hipotezlər ortaya qoyulur.

7. **TƏDQİQAT ÜSULU**: dedikdə tədqiqat zamanı "nəyin necə ediləcəyi" müəyyən olunur. Bu hissə əvvəlki hissələrlə üzvü surətdə bağlıdır. Əvvəlki hissədə tədqiqat problemləri və ya hipotezlərlə konkret bir formada müəyyən edilənlərin necə tədqiq olunacağı izah olunur. Mənbə toplamaq və qiymətləndirməklə əlaqədar proseslər açıqlanır. İşin həyata keçirildiyi zaman tədqiqatın nələri əhatə edəcəyi (mövzu, məkan və zaman) müəyyən edilir. İşin mövzusu ilə əlaqədar olan, amma müəyyən səbəblərdən (zaman, mənbə, maliyyə və s., məhdudiyyətlərdən) tədqiq olunmayacaq mövzular aydın şəkildə təqdim olunmalıdır. Empirik tədqiqat həyata keçiriləcəksə əhatəsi və nümunələndirmələri haqqında izahat verilməlidir. İşdəki sualları cavablandırmaq və ya elmi versiyaları sınamaq üçün lazımi elmi mənbələrin hansı texnikalarla toplanacağı müəyyən olunmalıdır. Empirik işlərdə müşahidə, müsahibə, nümunə hadisə tədqiqi və s., üsullardan hansının, nə üçün seçilməsi səbəb(lər)i də qeyd olunmaqla müyyən edilməsi zəruridir. Toplanan mənbələrə tətbiq ediləcək statistik üsullar haqqında məlumat verilir.
8. **ƏDƏBİYYAT**: İşin tədqiqat planının ədəbiyyat siyahısı, elmi ədəbiyyat siyahısı sistemlərindən birinə uyğun olmalıdır. Tədqiqat təklifi hazırlanarkən istifadə olunan və mövzu ilə əlaqədar mühüm olduğu məlum olan mənbələrin (kitablar, məqalələr, dövrü və birdəfəlik çap olunan qazet, jurnal və bülletenlər, internet materialları, yerli və beynəlxalq təşkilatların, dövlət orqanlarının hesabatları, qanunlar, normativ-hüquqi aktlar, çap olunmuş və olunmamış istifadəsi qadağan olunmayan elmi və digər tədqiqatlar/materiallar və s., yazılı mənbələr, tədqiqatçının aparmış olduğu müsahibələr) dəqiq məlumatları siyahıya alınmalıdır. Ədəbiyyat siyahısı işin tam təsdiq olunduğu günə qədər təkmilləşdirilməlidir. Ədəbiyyat siyahısının tərtib və istifadə olunduğu zaman "Müəllif hüquqları" və "Dövlət Sirri haqqında" Qanunların tələblərinə riayət etmək lazımdır.
9. **VAXTIN İDARƏ OLUNMASI**: Tədqiqat işinin bütün mərhələlərinə (ədəbiyyatın, mənbələrin tədqiq olunması, sorğu, eksperiment və s. praktik işlərin görülməsi, qiymətləndirmə və işin yazılması) nə qədər vaxt ayrıldığını, hər mərhələnin təqvim üzrə hansı tarixi dövrü əhatə edəcəyini müəyyənləşdirmək lazımdır.
10. **İŞİN MÜNDƏRİCATI**: Bu başlıq altında, iş üçün nəzərdə tutulan mündəricat təqdim olunur. Mündəricat tədqiqat prosesində inkişaf edəcək və daha da təkmilləşəcək bir plandır. Bu hissədə mövzu ilə bağlı ümumi biliklərin verildiyi giriş, nəzəri çərçivə, tarixi biliklər, toplanmış məlumatların işin mövzusuna uyğun olaraq bir elmi məntiq əsasında sıralanmasıdır. Bu iş giriş, əsas və nəticə hissələrinin müəyyən olunmasına imkan verməlidir. (Bax: nümunə 1.)
11. **ƏLAVƏLƏR:** Burada əlavə sxemlər, cədvəllər, sənədlər, fotolar, xəritələr, sorğu nümunələri və s., əlavə məlumatlar əks oluna bilər.

**BURAXILIŞ İŞİNİN MÜNDƏRİCATI LAYİHƏSİ**

**GİRİŞ**

**İXTİSARLAR (əgər varsa)**

**FƏSİL I.**
1.1.
1.2.
1.3.

**FƏSİL II.**

2.1.
2.2.
2.3.

**YEKUN NƏTİCƏ VƏ YA TƏKLİFLƏR**

**ƏLAVƏLƏR (əgər nəzərdə tutulubsa)**

**ƏDƏBİYYAT**

**XÜLASƏ**

**BURAXILIŞ İŞİNİN YERİNƏ YETİRİLMƏSİNİN PLAN-QRAFİKİ**

(15 Fevral-15 iyun )

| **Vaxt (aylar üzrə)** | | **Elmi rəhbərin və mövzunun təsdiqi** | **Tədqiqat planının hazırlanması və təsdiqi** | **Mənbələrin toplanması** | **Sahə tədqiqatının/sorğunun/müsahibələrin keçirilməsi** | **Oxumaların və analizlərin aparılması** | **Tədqiqatın yazıya keçirilməsi** | **Elmi işin müdafiəsi** |
|---|---|---|---|---|---|---|---|---|
| **I ay** | 1 | | | | | | | |
| | **2** | | | | | | | |
| | **3** | | | | | | | |
| | 4 | | | | | | | |
| **II ay** | 1 | | | | | | | |
| | **2** | | | | | | | |
| | **3** | | | | | | | |
| | 4 | | | | | | | |
| **III ay** | 1 | | | | | | | |
| | **2** | | | | | | | |
| | **3** | | | | | | | |
| | 4 | | | | | | | |
| **IV ay** | 1 | | | | | | | |
| | **2** | | | | | | | |
| | **3** | | | | | | | |
| | 4 | | | | | | | |

**Tələbə:**

**Elmi rəhbər:**

Əlavə 4.

Azərbaycan Dövlət Pedaqoji
Universitetinin Elmi Şurasının
30 oktyabr 2019-cu il tarixli iclasının
Qərarı ilə (protokol № 2) təsdiq edilmişdir.

**Azərbaycan Dövlət Pedaqoji Universitetində**
**2019/2020-ci tədris il üzrə buraxılış işlərinin antiplagiat yoxlama nəticəsi haqqında**
**YEKUN HESABAT**

| **№** | **Tələbənin soyadı, adı, atasının adı** | **Fakültəsi, ixtisası və qrup nömrəsi** | **Buraxılış işinin adı** | **Elmi rəhbərin adı** | **İlk antiplagiat yoxlama nəticəsi (%)** | **İkinci antiplagiat yoxlama nəticəsi (%)** | **Qeyd** |
|---|---|---|---|---|---|---|---|
| 1. | | | | | | | |
| 2. | | | | | | | |
| 3. | | | | | | | |
| 4. | | | | | | | |
| 5. | | | | | | | |
| 6. | | | | | | | |
| 7. | | | | | | | |
| 8. | | | | | | | |

| **Hazırladı:** | **Təsdiq edir:** |
|---|---|
| Məsul şəxsi | Şöbə müdiri |